***“PAŞA Bank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən əlavə buraxılan səhmlərə kütləvi təklifi və yerləşdirilməsinə dair tez-tez verilən suallar***

**1.“PAŞA Bank ASC” səhmləri nədir?**

“PAŞA Bank” ASC (bundan sonra PAŞA Bank və ya Bank) tərəfindən buraxılan adi səhmlərdir. Bu səhmləri əldə edən investor PAŞA Bank-in səhmdarı olur və səhmdar kimi **bir sıra hüquqlar qazanır. Bu hüquqlara** Bankın illik xalis mənfəətindən dividend əldə etmək, həmçinin səhmdarların ümumi yığıncaqlarında iştirak edərək gündəliyə daxil edilmiş mühüm məsələlər üzrə səs vermək daxildir. PAŞA Bank ASC **planlaşdırdığı İlkin Kütləvi Təklif (IPO) çərçivəsində** səhmlərinin 5%-ni bazara təklif etməyi nəzərdə tutur.

**2. Dividend nədir?**

- Dividend şirkətin mənfəətinin səhmdarlara paylanmış hissəsidir.
- İnvestorlar dividendləri sahib olduqları səhmlərin sayına uyğun alırlar.

**3. Dividend gəlirliliyi (yield) nədir?**

- Dividend gəlirliliyi investorların səhmlərdən əldə etdiyi gəlirin səhmlərin qiymətinə nisbətini göstərir.
- Hesablanması: illik dividend / səhmin qiyməti

**Nümunə:**
Əgər bir şirkət son 12 ay ərzində hər bir səhm üçün 10 AZN dividend ödəyibsə və səhmin qiyməti 100 AZN-dirsə, dividend gəlirliliyi 10% olacaq.

**4. Dividend məbləği ilə dividend gəlirliliyi (yield) arasındakı fərq nədir?**

Dividend məbləği səhmdara ödənilən faktiki pul vəsaitidir. Dividend gəlirliliyi isə həmin dividendin səhmin bazar qiymətinə nisbətini göstərir.

Eyni dividend məbləği fərqli səhm qiymətlərində fərqli dividend gəlirliliyi yarada bilər.

**5. Dividend məbləğini hansı amillər müəyyən edir?**

Dividendlər bir neçə amildən asılıdır:

- Bankın xalis mənfəəti
- Tənzimləyici kapital tələbləri
- Səhmdarların təsdiqi
- Bankın gələcək inkişaf və investisiya planları



“PASHA Bank” Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22

**6. PAŞA Bank dividend ödəyəcəkmi?**

PAŞA Bank xalis mənfəətin təxminən 30–40%-ni dividend kimi bölüşdürməyi planlaşdırır. Bu, səhmdarların qərarı, tənzimləyici tələblər və bankın maliyyə nəticələrindən asılıdır.

**Dividend ödəniş nisbəti** – bankın xalis mənfəətinin səhmdarlara dividend kimi paylanan faizidir.

**Nümunə:**
Əgər bankın xalis mənfəəti 100 milyon AZN-dirsə və ödəniş nisbəti 40%-dirsə, 40 milyon AZN səhmdarlara dividend kimi paylanacaq.

**7. İnvestorlar ilk dividendləri nə vaxt alacaqlar?**

- Növbəti dividend ödənişi 2026-cı ilin **iyun** ayında gözlənilir, səhmdarların təsdiqinə tabedir.
- Bank 2026-cı il boyunca əlavə dividend ödənişləri imkanını nəzərdən keçirməyi planlaşdırır, bankın maliyyə göstəricilərindən asılı olaraq.

**8. PAŞA Bank dividendləri hansı tezliklə ödəyəcək?**

- Dividendlər əsasən bir və ya iki dəfə ödəniləcək, bankın audit edilmiş maliyyə nəticələri və səhmdarların təsdiqi əsasında.

**9. PAŞA Bank dividendləri zəmanət verə bilərmi?**

- Xeyr. Dividend və onun məbləği zəmanət verilə bilməz, çünki bu, bankın mənfəətinə bağlıdır.
- Dividend gəlirliliyi həm dividend məbləğindən, həm də səhmlərin bazar qiymətindən asılıdır.

**10. PAŞA Bank-ın dividend gəlirliliyi nə qədərdir?**

- Dividend gəlirliliyi IPO zamanı səhmlərin qiyməti müəyyənləşdikdən sonra hesablanacaq.
- Bu göstərici son 12 ay ərzində ödənilmiş dividendlərin səhmin IPO qiymətinə nisbəti ilə müəyyən edilir.
- Gələcək dividend gəlirliliyi əvvəlcədən dəqiq bilinmir, çünki o həm gələcək dividendlərin məbləğindən, həm də səhmlərin bazar qiymətindən asılıdır.
- PAŞA Bank investorlara yalnız gözlənilən dividend məbləği ilə bağlı istiqamət verir; dividend gəlirliliyi bazar şərtlərinə uyğun olaraq dəyişəcək.



"PASHA Bank" Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22

**11. Dividendlər vergiyə cəlb olunurmu?**

- Dividendlər 5% mənfəətdən tutulan vergi ilə vergiyə cəlb olunur, lakin hazırkı qanunvericiliyə əsasən 1 fevral 2028-ci il tarixinədək vergidən azaddır (Vergi Məcəlləsi, 102.1.22-2-ci maddə).

- Vergi dividend ödənilməzdən əvvəl avtomatik tutulur.

**12. Dividend qeydiyyat tarixi nədir?**

- Dividend qeydiyyat tarixi - Dividend almaq hüququ olan səhmdarların müəyyən edildiyi tarixdir.
- Dividend almaq üçün səhmlərə bu tarixdə və ya ondan əvvəl sahib olmaq lazımdır.
- Qeydiyyat tarixindən sonra səhmləri alan investorlar həmin dividenddən yararlana bilməz, amma gələcək dividendlər üçün iştirak edə bilərlər.

**Nümunə:** Dividend qeydiyyat tarixi: 10 May

- Investor 10 May və ya ondan əvvəl səhmləri alır → dividend alır
- Investor 10 May-dan sonra səhmləri alır → həmin dividenddən yararlana bilmir

**13. İnvestorlar PAŞA Bank-ın gözlənilən dividendləri və qeydiyyat tarixi haqqında necə məlumat əldə edəcəklər?**

- Dividend elanları, o cümlədən dividend məbləği və qeydiyyat tarixi, səhmdarların iclasında təsdiqinə tabedir və ictimaiyyət üçün açıqlanacaq.
- Bu məlumatlar Bakı Fond Birjasının açıqlama sistemi, bankın rəsmi veb-saytı və broker kanalları vasitəsilə əlçatan olacaq.

**14. PAŞA Bank səhmlərini kim ala bilər?**

• Həm fiziki şəxslər, həm də hüquqi şəxslər
• Həm rezident, həm də qeyri-rezident investorlar

**15. İnvestorlar IPO-da necə iştirak edə bilərlər?**

IPO-da iştirak etmək üçün investorun broker hesabı olmalıdır.
Hesab mövcud deyilsə, əvvəlcə səlahiyyətli brokerlərdən biri vasitəsilə hesab açmaq lazımdır. Proses aşağıdakı kimidir:

Addım 1. **Broker hesabı açın**

Əgər broker hesabı yoxdursa, aşağıdakı brokerlərdən biri vasitəsilə investisiya hesabı açmaq mümkündür:

- PASHA Capital
- ABB Invest
- UniCapital

Addım 2. **IPO üçün sifariş verin**

Broker hesabı açıldıqdan sonra investor seçdiyi brokerin investisiya platforması vasitəsilə PAŞA Bank səhmlərinin alınması üçün sifariş verə bilər.

Addım 3. **Səhmləri əldə edin**

IPO prosesi başa çatdıqdan sonra yerləşdirilmə nəticələrinə uyğun olaraq əldə edilən səhmlər investorun broker hesabında əks olunacaq.

**16. PAŞA Bank-ın dividend siyasəti nədir və bu investorlar üçün nə ifadə edir?**

Bu yanaşma investorlar üçün həm davamlı dividend gəliri, həm də bankın gələcək inkişafı üçün **balanslı** yanaşma təqdim edir. PAŞA Bank olaraq məqsədimiz səhmdarlara sabit dividend təqdim etməklə yanaşı, bankın uzunmüddətli inkişafını da təmin etməkdir. Buna görə mənfəətin bir hissəsi dividend kimi bölüşdürülür, digər hissəsi isə biznesin inkişafı, kapitalın gücləndirilməsi və gələcək dəyər yaradılması üçün saxlanılır.

**17. IPO üçün sifariş necə təqdim olunur?**

Abunə müddəti ərzində investor broker vasitəsilə sifariş verə bilər. Sifarişin tam məbləği AZN ilə əvvəlcədən hesabda olmalıdır; ödənilməmiş sifarişlər qəbul edilmir.

**18. Sifarişlər IPO zamanı nə vaxt verilə bilər?**
Sifarişlər IPO-nun rəsmi abunə müddəti ərzində təqdim edilə bilər. Abunə aprelin ilk yarısında başlayacaq və təxminən 1 ay davam edəcək.

**19. IPO sifarişlərini hansı kanallarla təqdim etmək olar?**
Sifariş vermək üçün aşağıdakı kanallardan istifadə etmək mümkündür.

**Rəqəmsal kanallar**
• PAŞA Bank
• Bir Invest
• ABB Invest
• UniCapital

**Fiziki kanallar**
• PAŞA Bank filialları (Port Baku, Landmark, Bride Plaza, Private Banking, Gəncə ofislərimiz)
• Kapital Bank filialları



"PASHA Bank" Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22

**20. Sifariş üçün yerləşdirilmiş vəsait necə idarə olunur?**

Investor tərəfindən IPO zamanı sifariş verilərkən ödənilən vəsait sifariş üçün ayrılır.

Əgər bölüşdürmə nəticəsində istifadə olunmayan vəsait qalarsa, bu məbləğ abunə müddəti başa çatdıqdan sonra 7 iş günü ərzində investorun bank hesabına geri köçürüləcək.

**21. İnvestorun sifarişi icra edilmədikdə (təmin edilmədikdə) nə baş verəcək?**
Sifariş icra edilmədikdə, sifariş üzrə ödənilmiş məbləğ investorun hesabına geri qaytarılacaqdır.

**22. Abunə yazılışı nədir?**

Abunə yazılışı PAŞA Bank -ın əlavə buraxdığı səhmləri əldə etmək üçün investorların sifariş təqdim etdiyi prosesidir.

**23. İnvestor abunə yazılışı dövründə verilən sifarişi ləğv edə bilər?**

Xeyr. Abunə yazılışı müddəti bitənə qədər verilmiş sifarişlər ləğv edilə bilməz.

**24. İnvestor minimum və maksimum neçə səhm ala bilər?**

• Minimum: 1 səhm
• Maksimum: Məhdudiyyət yoxdur

**Qeyd:** İnvestora ayrılacaq yekun səhm sayı ümumi tələbatdan və bölüşdürmə prosesindən asılı ola bilər.

**25. Səhmlər necə paylanır və tələbat çox olarsa nə baş verir?**

Səhmlərin paylanması prosesi abunə müddəti bitdikdən sonra 5 iş günü ərzində başlayır və 7 iş günü ərzində tamamlanır.

Abunə müddəti başa çatdıqdan sonra səhmlərin paylanması prosesi həyata keçirilir. Əgər tələbat təklif olunan səhmlərin sayını üstələyərsə, investor sifariş etdiyi saydan daha az səhm əldə edə bilər.

Əgər səhmlərə olan ümumi tələbat təklif olunan səhmlərin sayından çox olarsa, səhmlər müəyyən edilmiş bölüşdürmə qaydalarına və prioritet prinsiplərinə uyğun olaraq investorlar arasında paylanılır.

**Bölüşdürmə aşağıdakı ardıcıllıqla aparılır:**



"PASHA Bank" Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22

**1-ci mərhələ**
Pərakəndə investorların 20,000 AZN-dək sifarişləri

**2-ci mərhələ**
Pərakəndə investorların 20,000 AZN-dən yuxarı sifarişləri (əgər əvvəlki mərhələdən sonra səhmlər qalarsa)

**3-cü mərhələ**
Hüquqi şəxslər və digər investorların sifarişləri (əgər əvvəlki mərhələlərdən sonra səhmlər qalarsa)

Əgər hər hansı mərhələdə səhmlərə olan ümumi tələb həmin mərhələr üzrə təklif olunan səhmlərin sayından çox olarsa, səhmlər investorlar arasında mütənasib şəkildə bölüşdürülür (allokasiya olunur).

Bölüşdürmə zamanı səhmlər yalnız tam ədəd şəklində təqdim edildiyi üçün hesablamalar nəticəsində yaranan rəqəmlər aşağıya doğru yuvarlaqlaşdırıla bilər. Yuvarlaqlaşdırmadan sonra qalan səhmlər isə sifarişin verilmə tarixi və vaxtına əsasən, ən tez sifariş verən investorlardan başlayaraq paylanır.

**26. Bu bölüşdürmə yanaşmasının üstünlüyü nədir?**

Səhmlərin az sayda iri investor arasında cəmlənməsinin qarşısını alır və daha geniş investor kütləsi arasında paylanmanı təmin edir.

**27. IPO-dan sonra PAŞA Bank səhmlərini satmaq mümkün olacaqmı?**

Bəli. Ticarət başladıqdan sonra investorlar səhmlərini broker platforması vasitəsilə Bakı Fond Birjasında sata bilərlər. Hazırda bu barədə, potensial market making xidmətləri ilə bağlı müzakirələr aparılır.

**28. IPO tamamlandıqdan sonra investorlar səhmləri nə zaman əldə edəcəklər?**

IPO tamamlandıqdan sonra səhmlər investorun broker hesabına köçürüləcəkdir. Səhmlərlə birjada ticarətin abunə müddəti bitdikdən təxminən 12 iş günü sonra başlaması gözlənilir.

**29. IPO-dan sonra PASHA Bank səhmləri harada ticarət olunacaq?**

PAŞA Bank səhmləri Bakı Fond Birjasında ticarət olunacaq.



"PASHA Bank" Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22

**30. İnvestorlar səhmləri aldıqdan sonra investisiyalarını necə izləyə bilərlər?**

İnvestorlar səhmlərini broker hesabları vasitəsilə izləyə bilərlər.

Ticarət başladıqdan sonra səhmin qiymətini Bakı Fond Birjasında da izləmək mümkündür.

**31. İnvestor səhmləri satdıqdan sonra vəsaiti nə zaman əldə edir?**

• Səhmlərin satışından əldə olunan vəsait, səhm satışı həyata keçirildikdən sonrakı iş günü investorun broker hesabına köçürülür.

• Bundan sonra investor broker şirkətinin daxili prosedurlarına uyğun olaraq həmin vəsaiti öz bank hesabına köçürə bilər.

**32. IPO-dan sonra səhmin qiyməti artacaqmı?**

• IPO-dan sonra səhmin qiyməti Bakı Fond Birjasında formalaşan bazar tələbinə əsasən müəyyən ediləcək.

• Qiymət bazar şərtlərindən və bankın gələcək fəaliyyət nəticələrindən asılı olaraq arta və ya azala bilər.

**33. Səhmlərin qiymətləri şirkətlər arasında niyə fərqli olur?**

Səhmin daha yüksək və ya aşağı qiymətə malik olması həmin şirkətin digərindən daha dəyərli olması demək deyil.

Səhm qiyməti bir neçə amildən asılı olaraq formalaşır:
• dövriyyədə olan səhmlərin sayı;
• şirkətin kapital strukturu;
• maliyyə göstəriciləri və qiymətləndirmə indikatorları;
• bazar şərtləri və investor tələbi.

Bu səbəbdən, şirkətləri yalnız bir səhmin qiymətinə əsasən müqayisə etmək düzgün yanaşma hesab olunmur. Daha düzgün müqayisə üçün şirkətin ümumi bazar dəyərinə və maliyyə göstəricilərinə diqqət yetirilməlidir.

**34. IPO Azərbaycan kapital bazarına necə töhfə verir?**

Bu IPO Azərbaycanın kapital bazarının inkişafına töhfə verir:

• Pərakəndə investor iştirakını artırır

• Yerli investor bazasını genişləndirir



“PASHA Bank” Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22

• Birjada likvidliyin artmasına dəstək olur

PAŞA Bank olaraq bu prosesdə məqsədimiz daha şəffaf və inklüziv investisiya mühitinin formalaşmasına töhfə verməkdir.

**35. PAŞA Bank-ın səhm qiyməti necə müəyyən edilib?**

Səhm qiyməti PAŞA Bank-ın ədalətli dəyərinin qiymətləndirilməsi əsasında müəyyən edilmişdir. Bu qiymətləndirmə Bankın İdarə Heyəti, Beynəlxalq Məsləhətçi və Səhm Təklifçisi tərəfindən birgə aparılmış geniş təhlilə əsaslanır.

Qeyd etmək vacibdir ki, son qiymət bazar dinamikası tərəfindən müəyyən olunur.



"PASHA Bank" Open Joint Stock Company

13, Yusif Mammadaliyev Street, Baku (AZ1005).

Code 505141, TIN 1700767721, SWIFT BIK PAHAAZ22